***TƏHSİLİMİZİN HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ***
***HEYDAR ALIYEV STAGE OF OUR EDUCATION***
***ЭТАП ГЕЙДАРА АЛИЕВА В ОБРАЗОВАНИИ***

*UOT 37.01*

***Mehriban Nağı qızı Sərdarova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*kiçik elmi işçisi*
*https://orcid.org/0009-0000-8876-7051*
*E-mail: mehribanserdarova@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).11-16*

# HEYDƏR ƏLİYEVİN TƏHSİL KONSEPSİYASI MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏSİ KİMİ

***Mehriban Naghy Sardarova***
*scientific worker at the Azerbaijan State Pedagogical University,*

# HEYDAR ALIYEV'S EDUCATION CONCEPT AS A NATIONAL SECURITY ISSUE

***Мехрибан Наги гызы Сардарова***
*младший научный сотрудник*
*Азербайджанского Государственного Педагогического Университета*

# КОНЦЕПЦИЯ ОБРАЗОВАНИЯ ГЕЙДАРА АЛИЕВА КАК ВОПРОС НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

**Xülasə.** Qlobal inkişaf tendensiyalarını davamlı tərəqqidə əsas götürən Azərbaycan Respublikasında milli identikliyin qorunması mühüm prinsiplərdən biridir. Xalqımızın milli inkişaf prioritetləri, hədəfləri xüsusən də onun təhsilində əks olunur. Milli təhsil bir millətin varlığını formalaşdıran ən mühüm amillərdən biridir. Bu amil bir tərəfdən millətə öz keçmişini düzgün qiymətləndirməyə, digər tərəfdən gələcəyini ən yaxşı şəkildə qurmağa imkan verməklə milli təhlükəsizlik rolunda çıxış edir. Azərbaycan Respublikasının təhsil strategiyasının əsas prinsiplərindən bəhs edən bu məqalənin məqsədi Heydər Əliyevin təhsil konsepsiyasının dövlətimizin milli təhlükəsizlik məsələsi kimi əhəmiyyətini əsaslandırmaq, bu mənəvi irsi qorumağın vacibliyini vurğulamaqdan ibarətdir.
***Açar sözlər:*** *milli təhsil konsepsiyası, milli təhlükəsizlik, Heydər Əliyev, azərbaycançılıq*

**Abstarct.** Protection of national identity is one of the important principles in the Republic of Azerbaijan, which bases global development trends on continuous progress. The national development priorities and goals of our people are reflected, in particular, in its education. National education is one of the most important factors shaping the existence of a nation. This factor, on the one hand, allows the nation to correctly assess its past, and on the other hand, it plays the role of national security by allowing it to build its future in the best possible way. The purpose of this article, which discusses the main principles of the education strategy of the Republic of Azerbaijan, is to substantiate the importance of Heydar Aliyev's concept of education as a matter of national security for our state, and to emphasize the importance of protecting this spiritual heritage.
***Keywords:*** *national education concept, national security, Heydar Aliyev, Azerbaijaniism*

**Аннотация.** Защита национальной идентичности является одним из важных принципов в Азербайджанской Республике, которая основывает мировые тенденции развития на непрерывном прогрессе. Национальные приоритеты и цели развития нашего народа находят свое отражение, в частности, в его образовании. Национальное образование является одним из важнейших факторов, определяющих существование нации. Этот фактор, с одной стороны, позволяет нации правильно оценивать свое прошлое, а с другой – играет роль национальной безопасности, позволяя ей наилучшим

образом строить свое будущее. Цель данной статьи, в которой рассматриваются основные принципы образовательной стратегии Азербайджанской Республики, – обосновать значение концепции Гейдара Алиева об образовании как вопросе национальной безопасности для нашего государства и подчеркнуть важность сохранения этого духовного наследия.

***Ключевые слова:*** *концепция национального образования, национальная безопасность, Гейдар Алиев, азербайджанство*

Müasir dünyada informasiyanın həcmi zamana görə eksponensial olaraq böyük sürətlə artdığından informasiyanın yaşama müddətinin çox azalması, bundan çıxış yollarının axtarılması bu gün geniş müzakirə mövzusudur. İnformasiya mənbələrinin sayının həddən çox olması təhsil sahəsindən də yan ötmür. Belə ki, müasir tələblərə cavab verən qabaqcıl təhsil sistemlərinin açıq qapılardan asanlıqla daxil olması onların çeşidlənməsinə, seçilməsinə əngəllər yaradır. Sirr deyil ki, bəzən də müasirlik, islahat xatirinə islahat hallarına da rast gəlinir ki, bu da təbii bir haldır. Çünki təhsil yeniliyə açıq bir prosesdir, bura özünü doğrultmayan yeniliklər də daxil ola bilir, bəzən yanaşı addımlayır və növbəti mərhələdə nöqsana çevrilə bilir.

Digər tərəfdən də, dövlətimizin inkişafının indiki mərhələsi Azərbaycan təhsilinin qarşısında da yeni vəzifələr qoyur, bu isə öz növbəsində təhsildən qlobal çağırışlara cavab verməyi tələb edir. Təhsilin məzmunu yeniləşdirilərkən bəzən milli identlik arxa plana keçməli olur.

Bu halların aradan qaldırılması və yaxud baş verməməsi təhsilinin inkişafında xüsusi rolu olan təhsilşünasların nəzəri və təcrübi irsini öyrənmək, mövcud təhsilin təməl prinsiplərinə əsaslanmaq zərurəti yaradır. "*Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır*" [6, s. 187].

Ona görə də Azərbaycan xalqının milli ideyasını, milli dəyərlərini özündə əks etdirən təhsil qaynaqlarını əldə rəhbər tutmaq zərurəti yaranır. Bu baxımdan, Ümummilli Liderimiz Heydər Əliyevin təhsil irsi müstəqil dövlətimizin milli təhsilinin təməl prinsipləri, konseptual əsası kimi çıxış edir.

XX əsrdə Azərbaycan təhsilinin sovet ideologiyasının saxtalaşdırma, soy-kökünə biganə istiqamətdə siyasətindən xilası, milli təhsil dəyərlərinin canlandırılması Heydər Əliyevin milli təhsil siyasəti ilə bağlıdır.

Əvvəla, Heydər Əliyev əcdadlarımızdan miras qalan milli təhsil ideyalarını canlandırıb yaşatmaqla, inkişaf etdirməklə və öz təcrübəsi ilə zənginləşdirməklə bütün siyasi fəaliyyəti boyu Azərbaycan dövlətinin, dövlətçiliyinin, xalqının yüksəlişinə xidmət etmişdir.

İkincisi, Ümummilli Liderin dövlətçilik fəaliyyətinin hər iki dövründə təhsil sistemində əsaslı dəyişikliklər edilmiş, keyfiyyətcə yenidən qurulan təhsil sistemi müstəqil Azərbaycan Respublikasının milli maraqlarına cavab verən təhsil sisteminin sağlam əsasını təşkil edir. Azərbaycanın müstəqil dövlətçilik tarixində Heydər Əliyevin bilavasitə iştirakı ilə milli təhsil quruculuğu istiqamətində keçirilən əsaslı islahatlar, bir sözlə onun nəzəri və təcrübi təhsil irsi milli təhsil tarixinin xüsusi mərhələsi olmaqla gələcək inkişafın istiqamətlərini müəyyənləşdirən mühüm mənbədir.

Üçüncüsü, fundamental bir konsepsiya olan Azərbaycan Respublikasının milli təhsil strategiyası böyük təhsilşünas Heydər Əliyevin təhsil tariximiz miqyasında xüsusi əhəmiyyətə malik olan nəzəri və təcrübi irsinin, bütün zamanlarda yaradıcılıqla istifadə edilə biləcək təhsil ideyalarının məcmusu olmaqla milli təhlükəsizlik amili kimi çıxış edir.

Ona görə də bu gün müasir tələblərə cavab verən təhsilin yenidən Heydər Əliyev irsinə üz tutması tamamilə qanunauyğundur. İctimai quruluşun bir forması kimi o təhsil sistemi optimal hesab olunur ki, məqsədyönlü surətdə yaradıcı, qurucu təfəkkürə sahib dövlət rəhbərinin mövqeyi bazar rolunu oynasın, müxtəlif vasitələrlə cəmiyyətin üzvlərinin həyat idealının, intellektual hədəflərinin, estetik zövqünün, milli-əxlaqi prinsiplərinin düzgün seçilməsində həyata keçirilsin.

Ölkəmizin davamlı inkişafının tələbləri ilə idarəetmədən başlayaraq maliyyələşdirilməyə qədər hər məsələdə təhsilin yeni çağırışlara uyğunlaşdırılmasına səy göstərilir, bununla təhsil standartları da dəyişir. Bu da öz növbəsində təhsilin dövlətimizin milli təhlükəsizlik məsələsi olduğunu diqqətdə saxlamağı tələb edir. Heydər Əliyevin "*Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması daimi, əbədi olması bundan da çətindir*" fikrini təhsil sahəsinə transfer etsək, asanlıqla demək olar ki, milli təh-

silin qorunması, daimi, əbədi olması onun quruculuğundan daha böyük səy, qüvvə tələb edir. Bu baxımdan təhsildə başlıca tendensiyaların düzgün seçilməsində Heydər Əliyevin təhsil ideyalarının rolunu artırmaq və onu nəzəri-mücərrəd fikir səviyyəsindən konkret problemlərin həllində mexanizm kimi reallaşdırmaq mövcud çətinlikləri aradan qaldıra bilər.

Ulu Öndərin dövlətimizin və millətimizin gələcəyinə hesablanmış təhsil siyasətinin milli təhlükəsizlik mahiyyətini dərindən dərk etmək üçün Azərbaycanda siyasi hakimiyyətinin həm birinci, həm də ikinci dövründə təhsil sahəsində həyata keçirdiyi çoxistiqamətli fəaliyyətin bəzi məqamlarına diqqət yetirək.

Gələcəyi elmi surətdə planlaşdırmaq, sabahkı günün tələbatını qabaqcadan görmək, ona şüurlu surətdə hazırlaşmağı bacarmaq I dövrdə Heydər Əliyevin milli təhsil konsepsiyasının ən mühüm prioritetləri olmuşdur. Bu prioritetlər hədəf götürülərək azadlıq və müstəqillik duyğuları milli düşüncəmizdə üstünlük təşkil etməyə başladı, vahid sovet xalqı ideologiyası ilə azərbaycanlıları milli mənsubiyyətinə, soy-kökünə yadlaşdırmaq siyasəti mühitində tarixi yaddaşın bərpası istiqamətində qətiyyətli addımlar atıldı, milli təhsil dəyərlərinin canlandırılması ilə özünüdərkə və soy-kökə qayıdış təmin edildi.

Heydər Əliyevin həmin dövrdə milli kadr potensialının, həmçinin nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması, milli hərbi kadrların yetişdirilməsi, milli dövlətdə təhsilin gələcək inkişaf meyllərinə cavab verən bazanın formalaşdırması kimi dövlətçilik tariximizdə dərin iz qoyan fenomenal təhsil irsi müstəqil Azərbaycanın milli təhlükəsizlik siyasətinin təməllərindən hesab olunur.

Bu illərdə təməli qoyulan milli inkişaf strategiyalarının nəticəsində xalqımızın düşüncəsində, arzularında onillərlə yığışıb qalmış milli ideyanın, azadlıq və müstəqillik duyğularının, özünüdərkin, milli kimliyin canlanması ideya-siyasi və hərəkətverici qüvvə rolunda çıxış edərək müstəqil dövlətimizin yaranmasına zəmin yaratdı.

Başqa sözlə, 1993-2003-cü illərdə müstəqil Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil quruculuğu prosesini təhsil tariximizin XX əsrin 70-ci illərindən başlayan Heydər Əliyev dövrü şərtləndirir.

Qeyd edilməlidir ki, yaranmış ağır vəziyyətdən çıxış yolunun tapılması, ölkənin bütün istiqamətlərdə inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yollarının işlənib hazırlanması, bütün sahələrdə köklü struktur dəyişikliklərin aparılması, xalqın milli təhlükəsizliyinə ciddi əngəl olan neqativ halların qətiyyətlə aradan qaldırılması Azərbaycana rəhbərliyinin hər iki dövründə görkəmli tarixi şəxsiyyət, təhsilşünas dövlət xadimi Heydər Əliyevin müstəsna xidmətlərindən biridir.

Heydər Əliyevin müstəqil ölkəmizə siyasi hakimiyyətə qayıdışı ilə dövlətin başlıca lokomotivi hesab olunan təhsil sahəsini milli təhlükəsizlik siyasətinin mərkəzinə gətirərək onu böhrandan çıxarılması tədbirləri davam edən tənəzzülün, dağıdıcılıq meyllərinin qarşısını kəsdi, təhsildə inamla irəliləmək üçün yeni mühiti formalaşdırdı.

Müstəqil Azərbaycanda təhsili dövlət quruculuğunda, milli ideologiyanın müəyyənləşməsində, milli tərəqqidə həqiqi, güclü amil hesab edən Heydər Əliyev bu sahə ilə bağlı geniş və dərin islahatları əhatə edən proqramın işlənib hazırlanmasını və həyata keçirilməsini ilk dövlətçilik vəzifələrindən biri kimi irəli sürdü.

Heydər Əliyevin "Azərbaycan təhsil sahəsini milli məqsədlər, mənafelər əsasında qurmalıdır", "Təhsil millətin gələcəyidir", "İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin" kimi təhsil ideya-şüarları həm təhsilin, həm də millətin gələcəkdə müəyyənləşməsini şərtləndirən milli təhlükəsizlik müddəaları kimi çıxış edir[4, s. 289].

Təhsillə bağlı hər bir tədbirə Ulu Öndərin zamandan uca tövsiyəsi bələdçilik edir: "Tədbirlərin hamısı tədbir xatirinə yox, müəyyən bir dəyişiklik aparmaq xatirinə yox, yalnız və yalnız təhsili düz yolla aparmağa, xalqımızın gənc nəslini təhsilləndirməyə, tərbiyə etməyə, müstəqil dövlətin prinsipləri əsasında inkişaf etdirməyə yönəldilməlidir."

Heydər Əliyevin təbirincə müstəqil dövlətin prinsipləri onun milli təhsil konsepsiyasının təməllərini təşkil edir. Başqa sözlə, Heydər Əliyevin həmişəyaşar milli təhsil konsepsiyası dünyəvi elmlərin əsaslarını, azərbaycançılıq ideologiyasını – milli-mənəvi və ümumbəşəri mütərəqqi dəyərləri, milli əxlaq normalarını, İslam mədəniyyətini öz məzmununda əhatə edən, demokratik prinsiplərə, insan hüquq və haq-

larının qorunması tələblərinə, cəmiyyətin və insanın inkişafına xidmət göstərən təhsil sistemidir.

Müstəqil Azərbaycanda dövlət quruculuğunu əzmlə yorulmadan bütün vasitələrdən (xarici siyasəti daxili siyasətlə vəhdətdə götürərək) istifadə etməklə həyata keçirən böyük öndər dövlətçiliyimizin ideya-nəzəri əsaslarını da, milli dövlətçilik ideologiyasının prinsiplərini də müəyyən edir və şübhəsiz ki, dövlətçilik ideologiyasının formalaşdırılmasında əsas vasitə olan təhsil sahəsinin qarşısında duran vəzifələri də bu prinsiplərə uyğun təyin edir, həyata keçirilməsini dövlət quruculuğu qədər böyük yanğıyla həll edir, strateji hədəfləri müəyyənləşdirirdi.

Heydər Əliyev zamanında özünü doğrultmuş, müsbət nəticələr vermis təhsil təcrübələrinin tamamilə inkar edilməsinin, aparıcı, müasir dünyada üstünlük qazanmış istər Qərb, istər Şərq təhsil sistemlərinin təqlidçilik naminə qəbul edilməsinin qəti əleyhinə olmuş, təhsil sahəsində qəbul ediləcək hər bir qanunda da, inkişaf proqramında da məsələyə çox dəqiq, həssas münasibət göstərməyi tövsiyə etmişdir. O göstərirdi ki, dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Dünyanın bütün ölkələrində – istər Qərbdə, istərsə də Şərqdə əldə olunmuş nailiyyətləri dərindən öyrənməyi və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməyi birmənalı şəkildə bəyan edirdi.

Müstəqil Azərbaycanda milli təhsil quruculuğu, təhsildə əsas prioritetlərin, strateji hədəflərin müəyyənləşdirilməsi dövlət quruculuğunun tərkib hissəsi kimi həyata keçirilməyə başladı. Cəmiyyət və dövlət quruculuğu prosesində uğurla iştirak etmək üçün müasir tələblərə uyğun olan təhsilə malik olmaq əsas amil hesab edildi [6, s. 194].

Heydər Əliyevin milli təhsil quruculuğunu dövlət, yeni cəmiyyət quruculuğunun tərkib hissəsi kimi aparması fikirlərində aydın ifadə olunur. Milli tərəqqidə proqnozu düz vermədən, hədəfi düz müəyyənləşdirmədən təhsil sahəsində aparılan istənilən islahatların nəticəsiz olacağını göstərir, təhsil problemlərini bütövlükdə ölkənin ictimai həyatı kontekstində nəzərdən keçirilməsini vacib hesab edir, göstərirdi ki, dövlətçiliyin digər sahələrindən fərqli olaraq təhsil qanununun formalaşmasında, təhsil islahatlarının keçirilməsində bütün cəmiyyət iştirak etməlidir. [6, s.194].

Milli Məclisinin 6 dekabr 1993-cü il tarixli qərarı ilə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının layihəsini hazırlayan komissiyanın yaradılması, 12 noyabr 1995-ci ildə Ümumxalq səsverməsi ilə qəbul edilməsi, Konstitusiyanın 42-ci maddəsində vətəndaşların təhsil hüququnun təsbit edilməsi təhsil sahəsində həyata keçiriləcək islahatların hüquqi əsası olmaqla, həm də yuxarı abzasdakı mövqenin təsdiqi idi.

Müstəqil Azərbaycan Respublikasında milli təhsil quruculuğu əsasən iki istiqamətdə özünü göstərir:

1. Milli təhsil quruculuğunun konseptual əsaslarının formalaşdırılması;

2. Milli təhsil quruculuğu istiqamətində təhsilin müxtəlif sahələrində ahəngdar inkişaf üçün görülən işlər.

Milli təhsilin qurulması ilə bağlı proqram xarakterli vəzifələr Heydər Əliyevin təhsil işçiləri ilə görüşlərində, fikir müzakirələrində, gənclərə müraciətində, uşaqların beynəlxalq tədbirlərində iştirakında, şagirdlərin bilik günündə həyata keçirdiyi mütəmadi görüşlərində dövlətçiliyimizin inkişafında təhsilin mühüm əhəmiyyəti barədə onun prinsipial mövqeyi dəfələrlə bəyan edilmiş, ölkəmizdə milli təhsil sisteminin əsas inkişaf istiqamətləri, təhsil sahəsində çalışanların sosial müdafiəsi ilə bağlı qaydalar müəyyənləşdirilmişdir.

Məsələn, Bakı şəhərinin təhsil işçiləri ilə görüş [3, s.169-182] təhsilin milli ənənələrə sadiqliklə inkişafında dövlətçiliyin qayğısı kimi proqram əhəmiyyətli müddəalarla xarakterizə olunur. Məhz bu görüşdə milli təhsilimizin inkişafı perspektivlərini müyyənləşdirmək üçün irəli sürülən təkliflər və mülahizələr ümumiləşdirilmiş, lazımi tədbirlər görülməsi üçün vəzifəli şəxslərə konkret tapşırıqlar verilmişdir.

Bu görüş və tədbirlər milli təhsil sisteminin prioritet sahələrinin müəyyən edilməsi ilə nəticələndi. 30 mart 1998-ci il tarixli Sərəncamına əsasən Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması, milli təhsilin quruculuğunda ali konseptual mənbə olan İslahat Proqramının hazırlanması və 1999-cu il 15 iyun tarixli qərarla bu sənədin təsdiq edilməsi yeni prioritet istiqamətlər müəyyənləşdirdi [2].

Qeyd edilməlidir ki, İslahat Proqramı ilə milli təhsil quruculuğu prosesi həlledici mərhələyə daxil oldu. Belə ki, Sənəddə Azərbaycan milli təhsil sisteminin strateji hədəfləri və konseptual əsasları müəyyənləşdirildi. Heydər Əliyevin irəli sürdüyü müddəalar Proqramın əsas konseptual ideya və təməl prinsiplərini təşkil etdi. Xalqımızın milli-mənəvi xüsusiyyətlərindən, xüsusən təhsil sahəsində XX əsr Azərbaycanda formalaşmış mütərəqqi ənənələrdən səmərəli istifadə edilməsi, ümumbəşəri dəyərlərdən bəhrələnməklə bərabər əsasən müstəqil Azərbaycanın təhsil sisteminin milli zəminə söykənməsi müstəqil ölkəmizin milli təhsil quruculuğunun başlıca müddəaları olmaqla milli təhsil proqramına daxil oldu.

Habelə İslahat Proqramında müasir mərhələdə milli təhsil quruculuğunun mərhələləri, başlıca istiqamətləri, məqsəd, vəzifə və prinsipləri müəyyənləşdirildi, gözlənilən nəticələr və islahatın həyata keçirilməsi mexanizmi əks olundu. Təhsil sistemini mövcud tələblər səviyyəsində qurmaq və inkişafını təmin etmək üçün proqramda islahatların əsas konseptual prinsipləri müəyyənləşdirildi.

Milli dövlətçiliyin təməl prinsiplərinə əsaslanan yeni təhsil sistemində təhsil alanın şəxsiyyət kimi formalaşdırılması, onun tədris prosesinin bərabərhüquqlu subyektinə çevrilməsi əsas vəzifələrdən biri hesab edildi. Azərbaycan Respublikasının elmi-pedaqoji ictimaiyyətinin müəyyənləşdirdiyi təhsil meyarlarından istifadə etməklə Azərbaycanın strateji hədəf və məqsədlərini formalaşdırıb inkişaf etdirməyə qadir olan intellektual potensialın formalaşdırılması milli təhlükəsizlik hədəflərinə xidmət edən başlıca prinsiplər kimi qəbul edildi.

Azərbaycan Respublikasında milli təhsilin quruculuğu və davamlı inkişafının əsas müddəaları – həyata keçirilən islahatların milli-mənəvi dəyərlər kontekstində dərindən öyrənilməsi, təhsil sistemində milli dəyərlərdən, adət-ənənələrdən və XX əsrdə qazanılmış təcrübədən bəhrələnmənin zəruriliyi, hər bir zamanda mövcud vəziyyət və problemlərin hərtərəfli təhlil edilməsi və əsas vəzifələrin müəyyənləşdirilməsi, yeniliklərin inqilab yolu ilə deyil, təkamül yolu ilə həyata keçirilməsi, Azərbaycan təhsil sisteminin ümumbəşəri dəyərlərdən bəhrələnməsinə rəğmən milli dəyərlərə əsaslanması sonra formalaşan milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi çıxış edir [2].

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında iki istiqamətdə həyata keçirilməsi nəzərdə tutulan milli təhsil quruculuğu prosesi – konseptual əsaslarının formalaşdırılması ilə təhsil sahələrinin ahəngdar inkişafı vəhdətdə həyata keçirilir və məzmunu aşağıdakı prioritetləri özündə əks etdirir:

1. Böyüyən nəsil Azərbaycan qanunlarının aliliyini təmin etmək, insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq səyini yerinə yetirə bilmək üçün hazırlaşdırmalı və onun daşıyıcısı olmağı bacarmalıdır;
2. Azərbaycanın ərazi bütövlüyünü təmin etməli və qoruyub saxlamalıdır;
3. Təhsilin məzmunu azərbaycançılıq ideologiyasının prinsipləri əsasında yaradılmalıdır;
4. Böyüyən nəsil yüksək mənəviyyat ruhunda tərbiyələndirilməlidir;
5. Azərbaycan xalqının milli-mənəvi dəyərləri və ümumbəşəri dəyərlər hər bir gənc tərəfindən mənimsənilməlidir;
6. Böyüyən nəsil milli ruhda tərbiyə olunmalıdır;
7. Azərbaycan tarixi, dili, mədəniyyəti və dini dəyərləri təhsilin mənəvi əsasları olmalıdır.
8. Davamlı inkişaf tarixi-ədəbi-mədəni əsasın üzərində olmaqla milli təhlükəsizliyin qorunması istiqamətində həyata keçirilməlidir [2].

Yeri gəlmişkən, Azərbaycan Respublikasının dövlətçilik ideologiyası azərbaycançılıq olmaqla öz tərkibində dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər anlayışlarının üzvi vəhdətini əks etdirir[5]. Tarix boyu qazandığımız milli və mənəvi keyfiyyətlər bütövlükdə azərbaycançılıq ideologiyasında əks olunmaqla milli psixologiyamızı əks etdirir və milli təhsil sistemimizin bünövrəsini təşkil edir.

Dövlətçilik ideologiyasının formalaşmasında mühüm rol oynayan bu formalar özünün əxlaqi və etnik keyfiyyətlərinə görə bəşər mədəniyyətinin bir hissəsini təşkil edir.

Azərbaycan təhsilinin inkişaf istiqamətlərinin əksəriyyəti Heydər Əliyevin milli təhlükəsizlik konsepsiyasının cövhərini təşkil edən azərbaycançılıq ideologiyasının təməl prinsiplərini özündə ehtiva edən təhsil irsidir.

Milli təhsilimizin başlıca prioriteti olan azərbaycançılığın məqsədi yaşadığı məkandan asılı olmayaraq, hər bir azərbaycanlıya, soydaşı-

mıza vətənpərvərlik hissini, tarixi torpaqlarımıza, dilimizə, mədəni irsimizə, dövlət rəmzlərimizə məhəbbət aşılatmaqdır. Bu ideologiya dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlını vahid amal, ideya və Vətən ətrafında birləşdirir. Dövlətimizin milli təhsil strategiyasının ideoloji mənbəsinin bitkin, dolğun, mükəmməl obrazını ifadə edən azərbaycançılıq ideologiyası daim öyrənilməsi vacib olan mükəmməl nəzəri-praktik ideoloji baza, Azərbaycan insanının dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mədəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmusudur.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında xalqımızın fundamental dəyər və məqsədləri, milli maraqları, habelə milli-mənəvi hədəfləri cəmiyyətimizin və dövlətimizin tərəqqisini təmin edən sosial və digər tələbatların məcmusu kimi göstərilir və azərbaycançılıq ideyasının təşviqinə mühüm əhəmiyyət verilir[1].

Milli təhsil strategiyamızda təhsilin dünya standartlarına uyğunlaşdırılması ilə əlaqədar, təhsil sahəsində ümumbəşəriliyə xidmət edən dövlət siyasətinin əsas prinsiplərindən olan demokratikliyin də yolunun milli mənəviyyatdan keçdiyi irəli sürülür: Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir [3, s. 339].

Azərbaycan Respublikasının həyata keçirdiyi siyasi kursun, əsaslandığı ideologiyanın, tutduğu inkişaf yolunun məntiqi nəticələrindəndir ki, bu gün o, Şərq dünyasında, o cümlədən İslam dünyasında ilkin mövqelərdən birini tutur. Bunumla bərabər Qərb mədəniyyəti ilə sıx təmasdadır. Qərb dünyasının bir sıra qlobal layihələri bu gün Azərbaycan Respublikasında gerçəkləşdirilir. Azərbaycanda milli və dini kontekstdə tolerantlıq bütün dünya ölkələri üçün nümunə sayıla bilər. Lakin bununla belə, ölkəmizdə milli özünəməxsusluğumuz da unudulmur və milli mədəniyyətimizin inkişafı istiqamətində də böyük addımlar atılır. Azərbaycanın Şərqlə Qərb arasında vəhdət modeli kimi nümunəsi məhz Heydər Əliyevin memarı olduğu milli ideologiya konsepsiyasının, başlıca komponentlərinin, əsas istiqamətlərinin, gerçəkləşməyinin nəticəsidir.

Nəticə etibarilə demək olar ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunda qazanılan uğurlar milli təhsil tendensiyalarına üstünlüyün verilməsi və strateji əhəmiyyətli bir sahə kimi, milli təhlükəsizliyin təmin olunması sisteminin təşkili kimi ona xüsusi diqqət yetirilməsinin nəticəsində mümkün olmuşdur.

**Problemin aktuallığı.** Ümummilli Lider Heydər Əliyevin milli təhsil quruculuğundakı geniş və hərtərəfli fəaliyyəti, təhsil irsi milli təhlükəsizliyimizin tərkib hissəsi kimi bir fundamental konsepsiya təşkil edir. Dövlətimizin davamlı inkişafında, onun milli təhlükəsizliyinə təhdid yarada bilən amillər kontekstində bu irsin milli təhlükəsizliyin ən etibarlı meyarı və başlıca prioriteti kimi öyrənilməsi öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Heydər Əliyevin milli təhsil konsepsiyası dövlətimizin milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi tədqiq edilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə diqqət yetirilən məsələlər təhsilşünas dövlət xadimi Heydər Əliyevin irsini araşdıranlar, öyrənənlər üçün əhəmiyyətli ola bilər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. https://e-qanun.az/framework/13373
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı https://e-qanun.az/framework/5363
3. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H. Əliyev. – Bakı: Azərnəşr,– 1997. – c. 2. – 601 s.
4. Əliyev H., Təhsil millətin gələcəyidir /H. Əliyev. – Bakı: Təhsil, – 2002. – 510 s.
5. Xəlilov, S. Heydər Əliyev və müasir mərhələdə milli ideyanın təməl prinsipləri // Xalq qəzeti. – 2011, 13 dekabr. –№275. –s. 3-4
6. Xəlilov, S. S. Lider, Dövlət, Cəmiyyət / S. Xəlilov. – Bakı: Azərbaycan Universiteti, – 2001. – 358 s.


**Redaksiyaya daxil olub:** 29.09.2025